## GS1 Qlobal Forumu




GS1 Beynəlxalq assosiasiyasının növbəti illik Qlobal Forumu 22-26 fevral 2010-cu il tarixlərdə Brüsseldə baş tutmuşdur. Dünyada hökm sürən çətin iqtisadi vəziyyətə baxmayaraq, tədbirdə 81 Milli GS1 təşkilatını təmsil edən 505 nümayəndə iştirak edirdi. Qlobal Forumun əsas mövzusu – bütün dünya üzrə GS1 sisteminin istifadəçiləri üçün xidmət keyfiyyətini artırmaqla GS1 təşkilatının davamlı inkişafının təmin edilməsidir.

Forumda müzakirə olunan məsələlərin arasında aşağıdakılar da var idi:
- GS1 DataBar ştrixkodunun yeni simvolikasının tətbiqində irəliləyişlər;
- GS1 sisteminə yeni kodların (GS1 DataMatrix simvolikaları, QR code) daxil edilməsi;
- GS1 ştrixkodlarının qeyri-qanuni istifadəsinin qarşısını almaq üçün tədbirlərin işlənməsi;
- GS1 eCom və GS1 XML standartlarından istifadə;
- məlumatların qlobal sinxronlaşdırılması sahəsində:
- əmtəənin elektron kodların (EPC) istifadəsi;
- mobil cihazlar vasitəsilə əmtəə barədə əlavə məlumatın alınması;
- səhiyyə müəssisələrində xəstələrin təhlükəsizliyi üçün tətbiqi standartların yaradılması və təsdiq edilməsidir.



Forumda çıxış edərkən, GS1 təşkilatının Baş direktoru Miquel Lopera məxsusi olaraq qeyd etdi ki, əgər bu gün GS1 istehlakçılara standartlar təklif edirsə, 2020-ci ilə artıq istehlakçılara razılaşdırılmış standartlar, xidmət və həllər dəsti lazım olacaq.



Əgər bu gün GS1 standartları təchizat silsiləsində identifikasiya məqsədinə xidmət edirsə, 10 ildən sonra onlar təhchizat sisilələrinin identifikasiyası və şəffaflığını təmin etməlidirlər. Bu gün GS1 standartlarının əsas tətbiqi sahəsinin pərakəndə ticarət və çoxişlənən mallar olduğu halda, 2020-ci ilə onlar həqiqətən də çoxsahəli olmalıdırlar.



